“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 8 avqust 2015-ci il | № 60 (1976) | Qiyməti 25 qəpik

## “Silahlı Qüvvələrin bütün şəxsi heyəti torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə qadirdir”

### Müdafiə naziri cəbhə bölgəsində hərbi hissələrin döyüş hazırlığını yoxlayır

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov cəbhəboyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrdə döyüş hazırlığını yoxlayır.***

Düşmənlə üzbəüz səngərlərdə döyüş növbəsi aparan şəxsi heyətlə keçirilən görüşlərdə Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu qarşısında qoyduğu bir sıra tapşırıqları diqqətə çatdıraraq bildirib: "Dövlət başçısının tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi, komandir heyəti tez-tez cəbhə xəttində şəxsi heyətlə görüşlər keçirir. Əsas məqsədimiz əsgər və zabitlərimizin ümumi vəziyyəti, hərbi hissələrin döyüş hazırlığının səviyyəsi ilə maraqlanmaq, müvafiq tapşırıq və tövsiyələri çatdırmaqdır.

Bu gün Azərbaycan öz iqtisadiyyatı, büdcəsi, demoqrafik vəziyyəti, hərbi gücü və bir sıra digər parametrlərinə görə, hər cəhətdən tənəzzülə uğrayan düşməndən qat-qat üstündür. Bunu tək biz deyil, artıq Ermənistanın siyasi rəhbərliyi də etiraf edir. Bütün bunlar Ali Baş Komandan cənab İlham Əliyevin apardığı ardıcıl siyasətin nəticəsidir. Ordumuza göstərilən diqqət sayəsində Silahlı Qüvvələrimiz müasir silah-sursat, döyüş texnikası, o cümlədən təyyarə, helikopter və artilleriya sistemlərinin keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından düşmən ordusunu dəfələrlə qabaqlayır.

(Ardı 2-ci səhifədə)



## "LaDiplomatie" portalı: Ermənistanın etnik təmizləmə siyasətinin rəsmi şəkildə tanınması bu ölkəyə ağır zərbə olacaq

Fransanın "LaDiplomatie" portalında Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) "Çıraqov və digərlərinin Ermənistana qarşı" işi üzrə qərarı ilə bağlı məqalə yayılıb. Məqalənin müəllifi Loran Banin Məhkəmənin qərarını şərh edərək yazır ki, AİHM beynəlxalq hüququn müvafiq normalarını əldə rəhbər tutaraq şəxsi əmlak əlçatmaz olduğu halda dövlətin əlavə tədbirlər görmək vəzifəsinin olduğunu xatırladır. Bu qərarla Məhkəmə məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması və onların öz əmlakına yiyələnməsi hüququnu tanıyır. Münaqişə başlayandan bəri ilk dəfə olaraq Məhkəmə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğal edildiyini və Dağlıq Qarabağın bu gün erməni silahlı qüvvələrinin nəzarəti altında olduğunu qeyd edir. AİHM öz qərarını beynəlxalq hüququn müəyyən edilmiş qaydaları ilə əsaslandırır və Ermənistanın Dağlıq Qarabağa nəzarətini işğal faktı kimi dəyərləndirir.

Qərarın icrası məcburi köçkünlərin öz evlərinə qayıtmasını və Ermənistan qoşunlarının işğal etdiyi ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edir. Münaqişənin sülh yolu ilə həll olunması üçün aparılan danışıqlar prosesində Ermənistanın irəli sürdüyü bir çox şərtlər AİHM-in bu qərarı ilə de-fakto ləğv olunur. Bu baxımdan Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda aparılan danışıqlarda Məhkəmənin qərarı Azərbaycanın xeyrinə atılan həlledici addımdır.

Məqalədə qeyd edilir ki, Strasburqun yüksək instansiyalı məhkəməsi işğal olunmuş ərazilərdə insan hüquqlarının pozulmasına görə Ermənistanın məsuliyyət daşıdığını bildirir. Yəni, Ermənistan Dağlıq Qarabağ və onun ətrafında yerləşən, ermənilərin heç vaxt yaşamadıqları 7 inzibati rayonda pozulan insan hüquqlarını bərpa etməlidir.

Məqalədə vurğulanır ki, Dağlıq Qarabağ ərazisində etnik təmizləmə siyasətinin rəsmi şəkildə tanınması bəşəriyyətə qarşı cinayət törətməkdə ittiham edilən təcavüzkar Ermənistana ağır zərbə olacaq. AİHM-in bu qərarı Dağlıq Qarabağ münaqişəsinin həlli və mövcud status-kvonun ləğv edilməsi baxımından böyük əhəmiyyət daşıyır.

**AZƏRTAC**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı qüvvələrinin növbəti iki pilotsuz uçan aparatı məhv edilib

***6 avqust 2015-ci il.***

Cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus 2 ədəd "Krunk-25" taktiki pilotsuz uçuş aparatı (PUA) Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə bölmələrinin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəş nəticəsində məhv edilib.

"Krunk-25" pilotsuz uçuş aparatı taktiki dərinlikdə hava kəşfiyyatı tapşırıqlarını yerinə yetirmək üçün nəzərdə tutulub. Aparat proqramlaşdırılmış avtopilotla, video və fotokameralı avadanlıqla təchiz olunub. PUA yerdən operator tərəfindən idarə olunur.

Uçuş aparatının maksimal uçuş hündürlüyü 5400 metr, qalxma çəkisi 60 kq, uzunluğu 2.95 metr, qanadların açılma uzunluğu 4.2 metr, havada qalma vaxtı 5 saat, uçuş sürəti 150 km.saatdır.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***7 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 101 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə və Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə və Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Sarıcalı, Cəvahirli, Kəngərli, Novruzlu, Qaraqaşlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

## Biz də hazırıq

Mən müəlliməm. Zamanında şagirdlərimə Vətəndən, Vətən sevgisindən çox danışmışam.

Ermənistan elan etmədən Azərbaycana qarşı müharibəyə başlayanda mən də könüllü olaraq müharibəyə getdim.1992-ci il idi. Zabit kimi Zəngilanda hərbi xidmətə başladım. Zəngilanın işğalından sonra xidmətimi Murovdağda davam etdirdim. İndi istefada olan mayoram.

Etiraf edilməlidir ki, hərbi xidmətdə formalaşan xarakter mülki həyatda həmişə gərəkli olur. Ünsiyyətdə olduğum adamlarla söhbət zamanı həmişə bu haqda da danışıram.

İki oğul atasıyam. Oğullarımın ikisi də Vətənə borcunu yerinə yetirib. Onlar da, mən də Silahlı Qüvvələrimizin döyüş hazırlığının səviyyəsindən qürur duyuruq. Ali Baş Komandanın, Müdafiə nazirinin vaxtaşırı düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə olması əsgər və zabitlərimizin mənəvi hazırlığında müstəsna rol oynayır. Hərbi hissələrdə yaradılan şərait əsgərlərimizin xidməti vəzifələrini daha məsuliyyətlə yerinə yetirməsini şərtləndirir. Bu, həqiqətən də belədir. Yaradılan şərait böyük mənəvi təsirə malikdir. Belə ki, son vaxtlar atəşkəsi pozan düşmən ağır itkilər verir, irimiqyaslı əməliyyatlar aparmağa cürət eləmir.

Bir vətəndaş kimi, müharibə veteranı kimi Silahlı Qüvvələrimizdə aparılan islahatlardan qürur duyuram. Keçmiş doyüşçü yoldaşlarımla görüşəndə bu haqda ürəkdolusu danışırıq. Hamımız inanırıq ki, belə bir ordu torpaqlarımızı işğaldan azad etməyə qadirdir...

Silahlı Qüvvələrimizin döyüş hazırlığının hansı səviyyədə olduğunu düşmən yaxşı bilir. Onu da bilir ki, Cənubi Qafqazda ən güclü orduya malik olan bir dövlətin ərazilərindən çıxmalıdır. Onu da bilir ki, sülh danışıqları baş tutmasa, Azərbaycan işğal edilmiş ərazilərini döyüşlə azad edəcək.

Yaradılan şəraitə görə, bir vətəndaş kimi Ali Baş Komandana, Müdafiə nazirinə minnətdarıq.

Ali Baş Komandan əmr verərsə, özüm də, oğullarım da döyüşlərə getməyə, torpaqlarımızın işğaldan azad edilməsində iştirak etməyə hazırıq.

**Əli MƏMMƏDOV,**
**Qaradağ rayonu,**
**Lökbatan qəsəbəsi**

***Həqiqi hərbi xidmətə 2014-cü ilin yayında çağırılmışam. Bilirdim ki, hamı kimi mən də vətəndaşlıq borcumu yerinə yetirməliyəm. Hərbi nizamnamələrin tələblərinə məsuliyyətlə əməl etməliyəm. Bunları mənə valideynlərim də demişdi, məktəbdə müəllimlərimdən, qohumlarımdan, qonşularımdan da eşitmişdim. Ona görə özümü hərbi xidmətə hazır hesab edirdim.***

## Əsgər adı ilə fəxr edirəm

Torpaqlarımızın işğaldan azad edilməməsi bir vətəndaş olaraq məni də ağrıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı danışıqlar nəticə verməsə, işğal olunmuş ərazilərimizi döyüşlə almalıyıq. O torpaqları biz azad etməliyik. Ona görə hər birimiz həvalə edilən silahların atış xüsusiyyətlərini mükəmməl öyrənirik. Bu işdə bizə komandirlərimiz də, təcrübəli əsgər yoldaşlarımız da kömək eləyir. Bunu bizdən torpaqlarımızın işğaldan azad edilməsi zərurəti tələb edir. Bu, Vətənin tələbidir.

Hamı kimi mənə də məlumdur ki, Silahlı Qüvvələrimizdə son dövrlərdə aparılan islahatlar öz təsirini göstərir. İndi Ordumuz Cənubi Qafqazda ən güclü ordudur.

Komandirimizin dediyi bir fikri digər əsgər yoldaşlarım kimi mən də heç zaman yaddan çıxarmaram. O, deyir ki, əsgərin döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığı bir-birini tamamlamalıdır. Bizim mənəvi hazırlığımız da döyüş hazırlığımız kimi yüksək səviyyədədir. Ali Baş Komandanın, Müdafiə nazirinin döyüş bölgələrinə gəlməsi, əsgərlərlə bilavasitə səngərlərdə söhbət eləməsi, tapşırıqlar və məsləhətlər verməsi bizim ruh yüksəkliyimizə səbəb olur.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi bir fikir hələ hərbi xidmətə gəlməmişdən yaddaşıma həkk olunub: "Ən etibarlı silah yaxşı öyrədilmiş əsgərdir". Ona görə də hər birimiz yaxşı əsgər olmaq üçün bizə etibar edilən hərbi vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq.

Mən hərbi xidmətə Sumqayıt şəhərindən çağırılmışam. Xidmətimin ilk aylarında mən də çətinliklərlə üzləşirdim. Lakin bu çətinliklərin öhdəsindən gəlməyi bacardım. Buna görə komandirlərimə, təcrübəli əsgər yoldaşlarıma minnətdarlığımı bildirirəm.

Əsgərlərin məişət şəraitinin səviyyəsi yüksəkdir. Buna görə əsgər yoldaşlarımın adından Ali Baş Komandana, Müdafiə nazirinə minnətdarıq...

Ermənistanla sərhəd rayonlarında atəşkəs tez-tez pozulur. Əsgərlərimiz onlara həmişə layiqli cavab verir. Düşmən hiss eləyir ki, heç nəyə nail ola bilməyəcək. Çünki Azərbaycan əsgəri döyüş növbəsində ayıq-sayıq dayanır, hərbi xidmətini böyük məsuliyyətlə yerinə yetirir.

Mən fəxr edirəm ki, Ali Baş Komandanın, Müdafiə nazirinin əmr və göstərişlərini layiqincə yerinə yetirən əsgərlərimiz var və mən də onların sırasındayam.

**Əsgər**
**Elnur ŞİRİNOV,**
**“N” hərbi hissəsi**

# Cəbhə bölgəsindəki hərbi hissələrin döyüş hazırlığını yoxlayan Müdafiə naziri zabit heyətilə toplantılar keçirib







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrin döyüş hazırlığının yoxlamalarının nəticələrinə həsr olunan toplantılar keçirib.***

Müdafiə Nazirliyinin rəhbərliyi əvvəlcə ulu öndər Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyaraq onun xatirəsini hörmət və ehtiramla yad ediblər.

Cəbhə bölgəsində yerləşən hərbi hissə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirakı ilə keçirilən toplantılarda hazırkı əməliyyat şəraiti, döyüş hazırlığının vəziyyəti, müdafiə sistemi, onun hərtərəfli təminatı və bir sıra digər xidməti məsələlərlə bağlı Müdafiə nazirinə məruzələr edilib.

Sonda Müdafiə naziri real vəziyyət nəzərə alınmaqla döyüş və praktiki hazırlığa diqqətin artırılması, döyüş növbətçiliyində sayıqlığın gücləndirilməsi, verilən döyüş tapşırıqlarının dəqiq, vaxtında və müxtəlif hava şəraitlərində yerinə yetirilməsi, o cümlədən bölmələrin və döyüş texnikasının döyüşə hazır vəziyyətə gətirilməsi ilə əlaqədar müvafiq tapşırıqlar verib.

Müdafiə Nazirliyi rəhbərliyinin cəbhə bölgəsinə səfəri başa çatıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsini qəbul edib



***Avqustun 7-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.***

Görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Cəbhə bölgəsindəki hərbi hissələrin sosial-məişət şəraiti ən yüksək səviyyədə olmalıdır





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu rayonlarda olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhə bölgəsində yerləşən hərbi hissələrdə tikilən obyektlərdə olub.***

Ölkə prezidentinin göstərişinə əsasən, cəbhə bölgəsində yeni tikilən hərbi şəhərciklərdə aparılan inşaat işlərinin gedişatını yoxlayan Müdafiə naziri hərbi obyektlərin plana uyğun, keyfiyyətli tikilməsi, müəyyən olunmuş müddətdə başa çatdırılması, həmçinin quruculuq işlərinin aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Zakir Həsənov zirehli texnika, artilleriya qurğu və sistemləri üçün saxlanclar, hərbi tibb müəssisələri, əsgər yataqxanaları, xidməti və inzibati otaqlar, səhra və stasionar hamam-camaşırxana kompleksləri, eləcə də digər obyektlərdə hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə Nazirliyi rəhbərliyinin cəbhə bölgəsinə səfəri davam edir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# "Silahlı Qüvvələrin bütün şəxsi heyəti torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə qadirdir"

## Müdafiə naziri cəbhə bölgəsində hərbi hissələrin döyüş hazırlığını yoxlayır







**(Əvvəli 1-ci səhifədə)**

Keçən ilin avqustundan indiyədək ötən müddətdə düşmənə vurulan zərbələrdən sonra Ermənistanın hərbi-siyasi rəhbərliyi hələ də özünə gələ bilməyib. İndi də qorxu və vahimə içindədir. Artıq məqam yetişib. Səbri tükənən xalqımız, öz doğma yurdlarından didərgin salınmış insanlarımız da bizdən hərəkətə keçib, ömür boyu Azərbaycana qarşı düşmənçilik mövqeyində olan işğalçıları torpaqlarımızdan çıxarmağı tələb edir. Beynəlxalq qurumlar tərəfindən münaqişəyə dair qəbul edilmiş bir çox qərarlar da haqq və ədalətin bizim tərəfimizdə olduğunu sübut edir. Xalqımız onu da bilməlidir ki, döyüş ruhlu Azərbaycan əsgəri ölkəmizi Şuşasız, Laçınsız, digər işğal olunmuş şəhər və kəndlərsiz təsəvvür etmir. Silahlı Qüvvələrin bütün şəxsi heyəti qisas və qələbə hissi ilə yaşayır, torpaqlarımızı işğaldan azad etmək uğrunda müqəddəs borcunu yerinə yetirməyə hazırdır və qadirdir. Azərbaycan əsgəri yalnız öz gücü və qüvvəsinə güvənərək düşməni işğal olunmuş torpaqlardan qovmaqla ərazi bütövlüyümüzü bərpa edəcəkdir. Buna heç kimin şübhəsi olmamalıdır".

General-polkovnik Zakir Həsənov ərazinin çətin relyefi və xüsusiyyətləri nəzərə alınmaqla şəxsi heyətin döyüş hazırlığına diqqətin daha da artırılması, döyüş növbətçiliyinin aparılmasında sayıqlığın gücləndirilməsi, verilən döyüş tapşırıqlarının istənilən anda, dəqiq və vaxtında yerinə yetirilməsi, o cümlədən müharibə zamanı bölmələrin döyüş hazırlığı vəziyyətinə gətirilməsi ilə əlaqədar komandir və rəis heyətinə müvafiq tapşırıqlar verib.

Müdafiə naziri cəbhədə müdafiə xəttinin dayanıqlığını, qoşunların atəş imkanlarını, ərazidə mühəndis-istehkam qurğularının vəziyyətini, postlar və mövqelərdəki şəxsi heyətin maddi-texniki təminatının təşkilini, mənəvi-psixoloji durumunu, döyüş texnikası, silah-sursat və digər vasitələrin tam hazırlığını yoxlayıb.

Müdafiə Nazirliyi rəhbərliyinin cəbhə bölgəsinə səfəri davam edir.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

Cəmşid Naxçıvanski - 120

# Sərkərdənin xatirəsinə ehtiram





***Azərbaycanın görkəmli sərkərdələrindən olan ilk Azərbaycan milli divizisiyasının komandiri Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, hərbi hissə və birləşmələrdə yubiley tədbirlərinin keçirilməsi davam edir.***

Şəmkir hərbi birliyinin əsgər klubunda keçirilən yubiley tədbiri də hərbi şöhrət tarixinə, hərb xadimlərimizə hörmət və ehtiramın ifadəsinə çevrildi.

Tədbir iştirakçıları öncə dahi şəxsiyyət, müdrik dövlət xadimi, Heydər Əliyevin büstü önünə tər qərənfillər düzdülər. Sonra mərasim birliyin əsgər klubunda davam etdirildi. Müstəqilliyimizin rəmzi olan dövlət himni səsləndirildi.



Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad edildi.

Müdafiə Nazirliyinin zabiti polkovnik Nazim Əhmədov bildiridi ki, xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyev həmişə Azərbaycanın hərb tarixinin, qəhrəmanlıq yolu keçmiş sərkərdələrin, dövlət xadimlərinin, mütəfəkkirlərin həyat və fəaliyyətinin öyrənilməsinə, gənc nəslə çatdırılmasına böyük diqqət yetirmişdir. Bu ənənə onun layiqli varisi, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Hərb tariximizdə önəmli yer tutan, 43 il şərəfli ömür yaşamış Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi də ulu öndərin xalqımız qarşısında misilsiz xidmətlərindən biridir. Ulu öndər onun xatirəsini əbədiləşdirmək üçün qərarlar qəbul etmiş, Naxçıvanda ev muzeyi açılmış, Bakıda yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. Ölkəmizdə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış ibtidai hərbi məktəbə də Cəmşid Naxçıvanskinin adı verilmişdir.

Görkəmli sərkərdə haqqında ölkə başçısının sərəncamı Silahlı Qüvvələrin şəxsi heyəti tərəfindən rəğbətlə qarşılanmışdır. Son günlər Gəncə qarnizonu zabitlər evində, bölgədə yerləşən hərbi hissələrdə sərkərdənin yubileyi təntənəli şəkildə qeyd olunmuşdur. Belə tədbirlər şəxsi heyətin döyüş ruhunu artırır. Vətənə, xalqa, dövlətə sədaqət hissini yüksəldir.

Qürurla demək olar ki, Silahlı Qüvvələrimizdə Cəmşid Naxçıvanskinin yüzlərcə, minlərcə davamçısı var. Onlar ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək, üçrəngli bayrağımız Xankəndində, Şuşada, Kəlbəcərdə, Laçında və işğal olunmuş başqa ərazilərimizdə dalğalanacaqdır.

Zabitlər Loğman Xanlarov, Kamran Heybətov çıxış edərək C.Naxçıvanskinin həyatı, şərəfli döyüş yolu, Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi və Baki şəhərinin erməni-bolşevik birləşmələrindən azad olunmasında göstərdiyi şücaətin Silahlı Qüvvələrin şəxsi heyətinə örnək, nümunə olduğunu bildirdilər.

Tədbirin sonunda Cəmşid Naxçıvanskinin həyatından bəhs edən sənədli film nümayiş etdirildi.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın unudulmaz sərkərdəsi

***Bu günlərdə hərb tariximizin tanınmış simalarından olan general C.Naxçıvanskinin anadan olmasının 120 illiyi Azərbaycan Hərb Tarixi Muzeyində təntənəli qeyd olundu.***

Azərbaycan Respublikası Prezident Administrasiyası, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi, hərbi təhsil müəssisələri, veteran təşkilatları, şəhər muzeyləri, KİV və digər təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbir ənənəvi olaraq ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlanıb. Dövlət himninin ifasından sonra muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə tədbiri açıq zı ordu sıralarındakı xidmətlərindən bəhs edən natiq sərkərdənin hərb tariximizdə özünəməxsus bir cığır açdığını xüsusi vurğulayıb. Muzeyin rəisi 1918-1920-ci illərdə Şuşada Qarabağ süvari alayının komandiri kimi Azərbaycan torpaqlarının erməni-daşnak birləşmələrindən təmizlənməsində sərkərdənin rolunu və onun Sovet dönəmində ordu quruculuğuna verdiyi töhfələri, hərbi kadrların hazırlanması ilə əlaqədar çətin, məqsədyönlü fəaliyyətini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə nümayiş etdirilən "Əsrin qəhrəmanlığı" adlı sə-




nəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin görkəmli hərb xadimi C.Naxçıvanskinin şərəfli ömür yolundan, xalqımızın qəhrəmanlıq ənənələrindən, ümummilli liderimiz Heydər Əliyevin Cəmşid Naxçı-



elan edərək, "Hərb tariximizdə özünəməxsus yeri olan unudulmaz sərkərdə Cəmşid Naxçıvanskinin həyatı və hərbi fəaliyyəti" adlı məruzə ilə çıxış edib. Naxçıvanskilər nəslinin sonuncu generalı C.Naxçıvanskinin istər çar ordusunda istərsə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə formalaşdırılmış milli orduda həyata keçirilən hərbi quruculuq işlərində, istərsə də Qırmı- nədli film müharibə cəbhələrində C.Naxçıvanskinin göstərdiyi şücaətlərlə gələcək nəsillərə örnək olan həyat və fəaliyyətinə həsr olunmuşdu.

Tədbir iştirakçıları Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Rasim Mirzəyevin, Müdafiə Nazirliyi Hərbi Orkestr xidmətinin rəisi, xalq artisti, professor, general-mayor Yusif Axundzadənin, Mə- vanskiyə verdiyi önəmdən danışdılar. Məlumat üçün bildirildi ki, Müdafiə Nazirliyinin nümayəndə heyəti yaxın günlərdə Moskvadakı toplum məzarlıqda dəfn olunmuş unudulmaz sərkərdəni hörmət və ehtiramla yad etməyə gedəcəkdir.

Görkəmli Azərbaycan oğluna həsr olunan yubiley tədbiri konsert proqramı ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hərb tariximizin görkəmli siması

## Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin ev-muzeyindən qeydlər

***Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 aprel 2015-ci il tarixdə imzaladığı sərəncamda deyilir: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyasına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir".***






Böyük sərkərdənin yubileyi doğulub boya-başa çatdığı Naxçıvanda da geniş qeyd edilir. Belə ki, Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2015-ci il aprelin 9-da imzaladığı sərəncamla tədbirlər planı təsdiq edilib. Həmin plana əsasən, muxtar respublikada hərb tariximizin görkəmli simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilir.

Yubiley tədbirlərinin keçirildiyi ünvanlardan biri də Naxçıvan şəhərinin mərkəzində yerləşən Cəmşid Naxçıvanskinin ev-muzeyidir. Bura onun dünyaya göz açdığı və 12 yaşına qədər yaşadığı, Cəfərqulu xanın evi kimi tanınan evdir. XIX əsrdə Kəngərlilər nəslindən yetişən beş generalın varisi, özü keçmiş sovet Azərbaycanının birinci generalı olmuş Cəmşid Naxçıvanskinin ev-muzeyinə yollandım. Burada məni səmimiyyətlə qarşılayan muzeyin əməkdaşları bütün eksponatlar haqqında məlumat verdilər.

Muzeyin bələdçisi Zemfira Adıgözəlova görkəmli şəxsiyyətin həyat yoluna nəzər salaraq bildirdi ki, Cəmşid Naxçıvanski 1915-ci ilin mart ayında azərbaycanlı süvari alayında həqiqi hərbi xidmətə başlayıb. 1920-ci ildə ikinci Qarabağ süvari alayının komandiri təyin edilən Cəmşid Naxçıvanski Qarabağdakı Əsgəran qalasının erməni daşnaklarından təmizlənməsində iştirak edib. O, aprel ayının 12-dək təkcə Əsgəran qalasını deyil, həm də Ağdamı və Xankəndini, eləcə də Şuşanı erməni quldurlarından təmizləyən hərbi qüvvələrimiz arasında fəallığı ilə seçilib. Cəmşid Naxçıvanski 1921-ci ildə Azərbaycanın ilk milli atıcı diviziyasını yaradıb və həmin diviziyaya komandir təyin olunub.

General Cəmşid Naxçıvanskini heç bir əsas olmadan 20 may 1938-ci ildə həbs ediblər. Sovet çekistləri 97 gün Cəmşid Naxçıvanskiyə ağlasığmaz işgəncələr veriblər. Həmin il avqust ayının 26-da onu güllələyiblər. 1969-cu ilədək onun haqqında yazmaq yasaq idi. Yalnız 1969-cu ildə Azərbaycana rəhbər seçilmiş ümummilli liderimiz Heydər Əliyevin cəsarətli təşəbbüsü sayəsində bəraət alan C.Naxçıvanskinin adı hərb tariximizdə əbədiləşib. 1971-ci ildə Bakı şəhərində respublika hərbi təyinatlı orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbə verilib. Sonralar həmin məktəb hərbi liseyə çevrilib. Böyük sərkərdənin adına indi ölkəmizdə hərbi lisey, ev-muzeyi və tam orta məktəb var.

Həmsöhbətim Zemfira Adıgözəlova Cəmşid Naxçıvanskinin ev-muzeyinin yaradılması barədə bildirdi ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1981-ci il avqustun 8-də Mərkəzi Komitədə Cəmşid Naxçıvanskinin 85 illik yubileyi münasibəti ilə yığıncaq keçirilib. Muzeyin yaradılması barədə qərar qəbul edilib. 22 oktyabr 1982-ci ildə Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin 276 nömrəli əmri ilə Cəmşid Naxçıvanskinin ata evi muzeyə çevirilib. Muzey müvəqqəti birinci mərtəbədə (zirzəmidə) fəaliyyət göstərib. 1987-ci ildən isə geniş tamaşaçı kütləsinin ixtiyarına verilib.



Hazırda muzeydə 6000-ə qədər eksponat var ki, onlardan da 900-ə yaxını ekspozisiyada nümayiş olunur. Muzeyin əməkdaşları Kəngərlilər sülaləsinin 6-cı generalı Cəmşid Naxçıvanskinin hərbi fəaliyyəti və istedadının təbliği ilə məşğuldurlar.

Artıq muzeydən ayrılmağın vaxtıdır. Yolboyu Cəmşid Naxçıvanskinin ev-muzeyindən əldə etdiyim təəssüratlar məni bir azərbaycanlı kimi daha da qürurlandırır. Çünki, Cəmşid Naxçıvanski Azərbaycanın hərb tarixində özünəməxsus yeri olan, haqqında iki dəfə ölüm hökmü çıxarılmış və böyük mənəvi sarsıntılara məruz qalmış, amma bütün bunların qarşısında sınmayan bir şəxsiyyət idi. Buna görə də Kəngərli tayfasının onlarla görkəmli nümayəndəsi arasında Cəmşid Naxçıvanskinin həyatı və fəaliyyəti maraqlı məqamları ilə seçilir. General Cəmşid Naxçıvanskinin adı hərb tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Onun keçdiyi ömür yolu bugünkü və gələcək nəsillərə örnəkdir.

Bu barədə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev elmi məqalələrinin birində yazıb: "Biz dönə-dönə Cəmşid Naxçıvanski haqqında yazacağıq. Çünki üç müxtəlif quruluşda hərbi xidmətdə olan, şücaətlə döyüşən və hərbi ordenlər, mükafatlar alan, milli diviziya yaradan (sonralar onun yaratdığı diviziyanı S.Orconikidze adına 77-ci Qırmızı Bayraq ordenli və Suvorov ordenli, Simferopol Atıcı Diviziyası adlandırmışlar) igid sərkərdə Cəmşid Naxçıvanski haqqında Kiyevdə, Moskvada və digər şəhərlərdə yerləşən hərbi arxivlərdə, üzə çıxarılmayan sənədlər vardır. Biz axtarışlarımızı dərinləşdirməklə bərabər, arzu edərdik ki, orta məktəblərimizin hərbi kabinetlərində onun fotoşəkli asılsın, həyatı və fəaliyyəti gənc nəslə layiqincə öyrədilsin. Milli, vətənpərvər sərkərdəmiz Cəmşid Naxçıvanski adı bütün yüzilliklərdə minnətdarlıqla yad edilməyə layiq bir qəhrəmandır."

Göründüyü kimi, Kəngərlilər nəslinin davamçılarından olan Naxçıvanskilər həm dövlətçilik, həm də hərbi sahədə mühüm xidmətlər göstərərək, adlarını tariximizə şanlı səhifələrlə yazdırıblar. Onlardan biri də 120 illik yubileyini böyük təntənə ilə qeyd etdiyimiz sonuncu Kəngərli generalı Cəmşid Naxçıvanskidir. Cəmşid Naxçıvanskinin ömür yolu bu gün gənclərimiz, eyni zamanda hərb peşəsinin incəliklərini öyrənən kursantlarımız, Vətənin müdafiəsində ayıq-sayıq dayanan hərbi qulluqçularımız üçün əsl nümunədir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# "O, Vətəni Azərbaycanı, doğulduğu Naxçıvanı çox sevirdi"

III məqalə

1921-ci il sentyabrın 10-da Cəmşid Naxçıvanski Azərbaycan atıcı briqadasının komandiri təyin olunur. Azərbaycan atıcı briqadasının bazası əsasında diviziya yaratdığına görə C.Naxçıvanskiyə təşəkkür elan edilir və mükafat olaraq ona gümüş dəstəkli qılınc verilir. Gənc sərkərdə yeni yaradılan milli dağ atıcı diviziyasına komandir təyin edilir. 1923-cü ildə isə təhsilini artırmaq üçün Moskvada hərbi akademiyanın ali komanda kursuna göndərilir. Akademiyanı bitirdikdən sonra Bakıya qayıdır və yenidən diviziyaya komandirlik edir.

Artıq o, hərbi taktikanı və hərb elmini dərindən bilən sərkərdə kimi püxtələşmişdi. Qeyd edək ki, onun bacarıqlı hərbi rəis kimi yetişməsində məşhur sərkərdələrdən Əlağa Şıxlinskinin və Səməd bəy Mehmandarovun böyük xidmətləri olub. Bu unudulmaz sərkərdələrin köməyi ilə Azərbaycan diviziyası Zaqafqaziya ordusunun taktiki təlim-məşqlərində birinci yeri tutmuşdu. C.Naxçıvanski 1921-ci ildən 1 iyun 1931-ci ilədək Azərbaycan Milli dağ atıcı diviziyasının komandiri olub, 10 il ərzində Azərbaycan Ordusu üçün əvəzsiz işlər görüb. 1927-ci ildə ikinci dəfə Moskvaya hərbi akademiyaya, 1928-ci ildə isə Sevastopol şəhərinə hava hücumundan müdafiə kurslarına göndərilir. 1927-1928-ci illərdə hərbi akademiyanın ali komanda heyətindən ona verilmiş xasiyyətnamədə yazılır: "Taktiki təlim hazırlığı qənaətləndiricidir, öz hazırlığını dərinləşdirir, hərbi işə sonsuz məhəbbət göstərir, işdə fəaldır, metodika sahəsində hazırlığı kafidir, komanda xadimliyinə təmayülü böyükdür, diviziyaya rəhbərlik etməyə tam layiqdir".

Cəsur sərkərdə Azərbaycan milli dağ atıcı diviziyasını keçmiş Sovet İttifaqının hər yerində tanıtmış, bacarıqlı hərbi və siyasi kadrlar yetişdirmişdi. Məşhur rus sərkərdəsi M.F.Frunze 1923 və 1925-ci illərdə Bakıya gələrkən divizyanın işi ilə tanış olmuş və Cəmşid Naxçıvanskinin fəaliyyətinə yüksək qiymət vermişdi.

1930-cu il oktyabrın 29-da C.Naxçıvanski "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilir. O, Azərbaycan SSR və Zaqafqaziya Mərkəzi İcraiyyə komitələrinin üzvü idi. Xan əsilli olduğundan Kommunist Partiyası sıralarına qəbul edilməyən Cəmşid Naxçıvanski Mir Cəfər Bağırov və onun dostu Lavrenti Beriya tərəfindən ciddi təqib edilirdi.



1931-ci ilin fevralın 22-də Qırmızı Bayraqlı Qafqaz Ordusunun qərargahında məruzə etmək üçün Tiflisə çağırılan C.Naxçıvanskini L.Beriyanın əmri ilə orada həbs edirlər. Həbs edildikdən 18 gün sonra, yəni martın 11-də ona həbs orderi yazılır. Sentyabrın 24-ə kimi Tiflisdə həbsdə qalan Cəmşid Naxçıvanski ayın 25-də Bakıya göndərilir. 1931-ci il sentyabrın 30-da M.Bağırovun sifarişi əsasında Azərbaycan Siyasi İdarəsi onu güllələməyi qərara alır. Ancaq S.Orconikidzenin işə qarışması onu güllələnməkdən xilas edir. S.Orconikidzenin xahişi ilə SSRİ Siyasi İdarəsinin rəhbəri V.R.Menjinski Cəmşidlə bağlı məsələni İ.V.Staliné bildirir. 1931-ci il noyabrın 5-də Mərkəzi Komitənin Siyasi Bürosunun iclasında Stalinin qərarı belə olur: Naxçıvanskini bu şərtlə azad edin ki, o, bir daha Zaqafqaziyada işləməsin. Bundan sonra C.Naxçıvanski Moskvaya M.V.Frunze adına Hərbi Akademiyaya dinləyici kimi göndərilir. 1933-cü ildə kursu bitirən C.Naxçıvanskini akademiyada müəllim saxlayırlar. O, əsas fakültənin ikinci kursunun rəisi təyin edilir. 1934-cü ildə isə ümumi taktika kafedrasına rəis təyin edilən C.Naxçıvanskiyə 1935-ci ilin dekabrın 5-də kombriq, yəni general hərbi rütbəsi verilir. Amma həmyerlimiz 20 may 1938-ci ildə yenidən həbs edilir. Həmin gün həbs anketində bir məlumat diqqətimizi çəkir. O yazır: "Anam, qardaşım və bacım xarici ölkədə yaşayırlar, onlarla heç bir əlaqəm yoxdur. Anamın adı Fəxrəntac, qardaşımın adı Davud, bacımın adı isə Lalabəyimdir".

Bu məlumatdan aydın olur ki, Cəmşid Naxçıvanski Moskvada yaşasa da, doğmaları haqqında məlumatı varmış. Sənədlərdən o da məlumdur ki, general Cəmşid Naxçıvanskini 52 gün (gecə-gündüz) mühakimə edib, ona ağlagəlməz işgəncələr verirlər. Keçmiş SSRİ-nin Siyasi İdarəsinin Lefortovo həbsxanasında C.Naxçıvanski 97 gün işgəncələrə mərdliklə dözür. Rusiya ordusunda əvəzsiz xidmətləri olan sərkərdəni 1938-ci il avqustun 26-da qapalı hərbi məhkəmənin qərarı ilə güllələyirlər. C.Naxçıvanski Moskva şəhərinin yaxınlığında yerləşən "Kommunarka" adlı meşə massivində kütləvi qəbristanlıqda dəfn edilir.

Kədərdən də kədərlidir sərkərdənin taleyi. Onun Lefortovada son dəfə çəkilən fotoşəklinə baxmaq olmur. Bu qədər qəddarlıq olarmı?! İgid sərkərdə sınmadan, əyilmədən, hətta vida sözü demədən ölümün gözünə dik baxır.

C.Naxçıvanskini ikinci dəfə həyata məhz ümummilli liderimiz Heydər Əliyev qaytardı, adını əbədiləşdirdi. Ümummilli liderimiz uzaqgörənliklə, böyük iradə və cəsarətlə Bakıda hərbi təmayüllü məktəbə C.Naxçıvanskinin adını verdi. O, 1981-ci ildə Azərbaycan KP MK-nın birinci katibi olduğu vaxtda göstəriş verir ki, Naxçıvan şəhərində sərkərdənin doğulduğu ünvanda ev-muzeyi yaradılsın.

Dahi şəxsiyyət Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti olduğu illərdə "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyi haqqında" 19 noyabr 2002-ci ildə sərəncam imzalayıb.

Hərb tariximizin fəxri olan görkəmli sərkərdə C.Naxçıvanskinin həyat və fəaliyyəti gəncliyimiz üçün əsl nümunədir.

**Musa QULİYEV**
**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru**

# Əlahiddə Ümumqoşun Orduda ilk zabit hazırlığı kursunun buraxılışı olub



***Əlahiddə Ümumqoşun Orduda zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirən 22 məzunun ilk buraxılışı olub. Buraxılış mərasimində Azərbaycan Respublikası Müdafiə Nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti salamladıqdan sonra hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və buraxılış mərasimi açıq elan olunub.***

Mərasimdə məzunlar adından leytenant Əli Abdullayev, valideynlərdən Elxan Alməmmədov çıxış edərək zabit hazırlığı kursunun muxtar respublikamızda təşkil olunmasının ordu quruculuğu istiqamətində həyata keçirilən məqsədyönlü tədbir olduğunu vurğulayaraq dövlət başçısına, eləcə də Ordumuzun rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Doğrudan da, Vətənə sədaqətli, peşəkar kadrların hazırlanması mühüm əhəmiyyət kəsb edir. Buna görə də Naxçıvan Muxtar Respublikasında hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev zabit hazırlığı kursunu bitirən məzunları təbrik edərək deyib ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü böyük işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə aparılır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun qayğısı ilə hərbi hissələrin maddi təminatı möhkəmlənmiş, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır.



Həyata keçirilən tədbirlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev deyib: "Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir".

Tam əminliklə deyə bilərik ki, Naxçıvan əhalisi rahat, sabitlik şəraitində yaşayır. Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun varlığı qədim diyarın malik olduğu hərbi qüdrətini özündə əks etdirməklə bərabər, düşmənin də qorxulu kabusuna çevrilib.

Sonra hərbi hissənin döyüş bayrağı sıra önünə çıxarılıb. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev zabit hazırlığı kursunu bitirən məzunlara sertifikatları təqdim edərək xidmətlərində uğurlar arzulayıb.

Kurs birincisi Nicat Rəhimov yaş kötüyünə buraxılış emblemi vurub. Məzunlar döyüş bayrağı qarşısında and içiblər.

Sonra şəxsi heyətin təntənəli keçidi olub.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

*Publisistik düşüncələr*

# Bu yol Qarabağa aparır

...Göy üzünə dayaq bildiyim Palıdın meydan kölgəliyinə el sığışar. Budaqları qartal qanadı kimi gərilən Palıd neçə illərdi Ana Torpağa oğulluq eləyənlərin uğurunun urvatıdı; yazda-payızda yağışa ürcah olanlara çətirdi, yayın bürküsündə kölgəlik....

Beş-on addım o yanda duyanların, duyumluların, duyğuluların söz çeşməsi bildiyim bir çeşmə çağlayır. Könlü qübarlananlar, dərdiylə baş-başa qalanlar, gecəsi ki, gecədi, gündüzü də gecəyə dönənlər, görər gözləri dünyadan küsənlər, dərdi keşənlər, ... Çeşmənin avazını yaşantılarına Tanrı payı bilir...

Bürküdü. Ağacların ufacıq Budaqları da, Budaqların ufacıq Yarpaqları da bir əsimlik meh həsrətindədi. Elə Çeşmə də. Bir əsimlik meh Ağaca, Ağacda Yarpağa könül xoşluğu verirsə, Çeşmənin zümzüməsi bir az da şirinləşir. Şirinləşən zümzümədə ruh hökmü var, bu zümzümə Torpaq üçündü, Torpağı vətənləşdirənlər üçündü...

...Yağış səpələyir. Palıdın qol-budağının altına sığınanlar uğur üstə bu yağışı arzulamasa da, qoşa ovucunu yağışın altına tutur. Göylərin göz yaşını ovuc-ovuc yığmaq, Torpağın qaysaqlamayan yaralarına məlhəm eləmək niyyətindədi. Göylər Yerə küsənirsə, Yerlər Göyə küsənirsə, bir ovuc yağışda da nəsə var, şübhəsiz. O bir ovuc yağışa görə əlləri göy üzünə açılı qalanlar azdımı?..

...Yağış kəsər-kəsməz Palıdın çətir budaqları arasından ilahi bir işıq süzülür. Göy üzünün göy qurşağıdı. Qövsi-qüzehdi. Göz görür, könül xoşlanır, ürək uçunur. Bu gözəlliyi gözlərinə, gözlərindən ürəyinə köçürənlər vəhyə bənzər bir səsə sarı boylanır. Çeşmənin oxumasıdı. Duyanlar üçün oxuyur. Ürəklə oxuyur, ürəyini səsə büküb oxuyur: Sevin bu Torpağı. Bu Torpaqda Palıdlar boy atır, böyüyür, Torpağı sevənlərin uğuruna ətək sərir. Mehi sevin, tasalananın hoyuna yetir. Yağışı sevin, gözləmədiyiniz məqamda, gözləmədiyiniz yerdə ovucunuzu sevindirir. Qövsi-qüzehi sevin. Həsrət gözlərinizə gözəllik payıdı, göy üzü varını Vətən adına uğur üstə olanlardan əsirgəmir. Yüz-yüz illərdi belədi, yüz-yüz illər də belə olacaq...

Könlüm atlanır. Bir bayatı kövrəkliyinə təslim oluram:

*...dərdi dara,*
*Daraq al, dərdi dara.*
*Əlimdə imkan olsa,*
*Çəkərdim dərdi dara!..*

Nə düşündüyümü duyubmuş kimi, "Xalq ordunun, ordu xalqın dayağıdı" deyir Palıd, "Vətən üçün hər birimiz bir əsgərik" deyir hər kəlməsi şəhd-şəkər olan Çeşmə, "Qəhrəmanlıq ənənələrini yaşadaq" deyir şirin-şirin əsən Meh, dənəbir-dənəbir yağan Yağış, "Gərək bu gün hər anımız Vətən desin!" deyir göy üzünün baxışı, baxışlarımızın naxışı olan Qövsi-qüzeh...

Murov bu kəlmələri eşidir deyəsən; bir boy da dikəlir. Sinəsindən sürüşüb düşən çığırlara, yollara baxır. Çığırlar yollara qarışır, yollar dolanıb ellərdən keçir. Analar var, illərdi gözləri yollardan yığılmır. Gedənlər ki, gedir, anaların umacaqlı baxışları gələnlərin üzündən üzülmür. Çoxu "Ana, Murovdan gəlirəm..." deyir, "Yolumuz Qarabağadı!" deyib də uzaqlaşır, ayaq saxlamır. Ürəyi çəkib aparır onu...

Torpağı dinşəyirəm: Sabahın tarixləşməsinin mənəvi yükü bu günün çiyinlərinə düşür. Bu gün sabahlar üçün yaşanılır. Yaşam fəlsəfəsini Palıddan, Çeşmədən, Mehdən, Yağışdan, Qövsi-qüzehdən öyrənin, - deyir Ana Torpaq. Ana Torpağın sözü Vətənin sözüdü...

...Vətənin çağırışı vəhy misallıdı. Xislətində Palıdlıq, Çeşməlik, Mehlik, Yağışlıq, Qövsi-qüzehlik olanlar Torpağın sözünü vəhy kimi eşidir. Eşidib də uğura çıxır. Uğurda olanların sırası çəkir gözlərimi. Abdulla Qurbani də öndə gedənlərin sırasındadı. İlham Zəkiyevlə çiyin-çiyinə irəliləyir. Bu yerişin güc aldığı inama necə bağır basmayasan?!

Qarabağa aparır bu yol!

Bu yol Böyük Qələbəyə aparır!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Gənc əsgərlər Vətənə sədaqət andı içməyə hazırdırlar

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2015-ci il 29 may tarixli sərəncamına əsasən, Azərbaycan vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı və müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxılması başa çatıb.***

Hərbi xidmətini başa vurmuş hərbi qulluqçulara Müdafiə nazirinin adından nümunəvi xidmətlərinə görə təşəkkür elan edilib, Vətənə layiqli övladlar yetişdirdiklərinə görə valideynlərə minnətdarlıq bildirilib, gənc əsgərlərə isə hərbi ənənələri uğurla davam etdirərək Silahlı Qüvvələrimizin döyüş salnaməsinə yeni-yeni parlaq səhifələr yazmaları arzulanıb.

Artıq bir aydan çoxdur ki, gənc əsgərlər hərbi həyata qədəm qoyub və ilkin əsgəri bilik və vərdişlərə yiyələnirlər. Müdafiə nazirinin müvafiq əmrinə əsasən onların xidmət keçmələri üçün hər cür şərait yaradılıb. Peşəkar zabitlər, psixoloqlar gənc əsgərlərin adaptasiyası dövründə səmərəli fəaliyyət göstərirlər. Gənclər nizamnamələri dərindən öyrənir, ilkin sıra hazırlığı və fiziki hazırlıqda yaxından iştirak edir, hərbi hissənin keçdiyi döyüş yolu ilə tanış olur, xidmət etdikləri diyarın görməli yerlərinə, memarlıq abidələrinə, muzey və mərkəzlərinə ekskursiyalar edirlər.



Lənkəran qarnizonunun hərbi hissələrində gənc əsgərlərin mənəvi-psixoloji hazırlığı, onların asudə vaxtının səmərəli təşkili ilk gündən diqqət mərkəzindədir.

Növbəti tədbirlərdən birində rayon ictimaiyyətinin nümayəndələri, Qarabağ və Əfqanıstan müharibəsi veteranları, yazıçılar, mədəniyyət xadimləri gənc əsgərlər qarşısında çıxış edərək, onlara rayonun tarixi, qəhrəmanlıq ənənələri barədə geniş məlumat verib, əsgəri ənənələri uğurla davam etdirməyi arzulayıblar.

Xalq artisti Qabil Quliyev ulu öndər Heydər Əliyevin "Orduda xidmət edən əsgərlər, borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə - ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar" sözlərini xatırladaraq əmin olduğunu bildirib ki, 2015-ci ilin iyul çağırışının gənc əsgərləri də Vətənə, xalqa sədaqətlə xidmət edəcək və onlara göstərilən etimadı doğruldacaqlar.

İki "Qırmızı Ulduz" ordenli, Əfqanıstan müharibəsi veteranı Əflatun İsmayılov, Qarabağ müharibəsi veteranı Əlisəfa Ağayev və şair Ağa Mircavadın çıxışları da maraqla qarşılanıb.

Ağdam rayonunun Abdal-Gülablı kəndindən olan gənc əsgər Ayxan Cəbrayılov deyib: "Kəndimiz Azərbaycan mədəniyyətinə çox görkəmli şəxsiyyətlər bəxş edib. Ancaq kəndimiz neçə illərdir ki, düşmən tapdağındadır. Mən və yaşıdlarım işğal altındakı torpaqlarımızı azad etmək arzusu ilə hərbi xidmətə gəlmişik. Doğrudur, əsgər həyatının özünəməxsus çətinlikləri vardır. Lakin Vətənini, xalqını, dövlətini ürəkdən sevən gənc bu çətinliklərdən qorxmamalıdır. Biz hərb elmini, etibar edilmiş silah və döyüş texnikalarını dərindən öyrənəcək, komandir və rəislərin əmrlərini sözsüz yerinə yetirəcək, çətin, lakin şərəfli yolu uğurla keçəcəyik".

Müdafiə Nazirliyi rəsmisinin və hərbi hissə komandirinin də iştirak etdiyi gənc əsgərlərlə və onların valideynləri ilə görüşlər zamanı vurğulanıb ki, torpaqlarımızın bir hissəsi düşmən işğalındadır. Qarşımızda duran ən mühüm vəzifə isə bu torpaqları düşmən əsarətindən xilas etməkdir. Hər birimiz Ali Baş Komandanın əmrlərinə hər an hazır olmalıyıq.

Gənc əsgərlərimiz artıq Hərbi And - Vətənə sədaqət andı içməyə hazırdırlar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Sürətli, çevik, möhkəm



***Mingəçevir şəhərində Hərbi Hava Qüvvələrinin hərbi hissələri arasında yüngül atletika üzrə yarış keçirilib.***

Zabit İkram Səfərov yarış iştirakçılarını salamlayaraq bildirib ki, həm hərbi hissənin ərazisində, həm də şəhər stadionunda iştirakçılar üçün bütün şərait yaradılmışdır. Yarışın sonunda qaliblər fəxri fərmanlar, diplomlar və kuboklarla mükafatlandırılmışlar.

Hərbi hissələr arasında birinci yeri mingəçevirlilər tutmuşlar. Baş leytenant Cavad Məmmədovun kapitanı olduğu komanda ən yüksək nəticə göstərmiş və kubokla mükafatlandırılmışdır.

3000 metr məsafəyə qaçışda gizir Faqət Quliyev, 100 metr məsafəyə qaçışda isə əsgər Billuri Xəlilov finişə hamıdan tez çatmışlar.

Yarışa hərbi hissə ilə birgə Mingəçevir şəhər Mədəniyyət və Turizm şöbəsinin kollektivi tərəfindən hazırlanmış konsert proqramı ilə yekun vurulmuşdur.

**"Azərbaycan Ordusu"**

# İnformasiya təhlükəsizliyi böyük önəm daşıyır



***"Kütləvi informasiya vasitələrində hərbi mövzuda materialların hazırlanması və informasiya təhlükəsizliyi" mövzusunda seminar keçirilib.***

Əlahiddə Ümumqoşun Ordu və kütləvi informasiya vasitələrində çalışan nümayəndələr arasında əlaqəli işin təşkili hansı səviyyədədir, informasiya təhlükəsizliyi məsələsi öz həllini necə tapır, hərbi proqram və materialların hazırlanması qaydaları, hərbi informasiya təhlükəsizliyinin hüquqi tənzimlənməsi haqqında nə bilirik, informasiya təhlükəsizliyini qorumaq üçün jurnalistlər nələrə diqqət etməlidirlər və onların vəzifələri nədir? Bu suallara Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Əlahiddə Ümumqoşun Ordu ilə birgə təşkil etdiyi seminarda aydınlıq gətirilib.

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının üzvü Fərasət Əsədullasoy açıq elan edib.

Əlahiddə Ümumqoşun Ordunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi polkovnik Mirqiyas Rüstəmov bildirib ki, görülən tədbirlər nəticəsində hərbi hissə və bölmələrdən kənara informasiya təhlükəsizliyi qaydalarını ciddi şəkildə pozan, əməliyyat şəraitinə mənfi təsir edən məlumatlar sızmır, kütləvi informasiya vasitələrinin nümayəndələri də vətəndaşlıq mövqelərini ortaya qoyaraq dezinformasiya yayan düşmənin niyyətini real məlumatlarla puça çıxarırlar.



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının şöbə müdiri Abil Orucəliyev "Hərbi informasiya təhlükəsizliyinin hüquqi tənzimlənməsi" mövzusunda məruzə edib, KİV qanunvericiliyində informasiya fəaliyyətinin hüquqi qaydaları və hərbi informasiya təhlükəsizliyində hansı normativ-hüquqi aktlara əməl etməyin vacibliyi və digər məsələlər haqqında danışıb.

Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının baş məsləhətçisi Ləman Nəcəfzadə "Hərbi informasiya təhlükəsizliyinin qorunmasında teleradioların rolu və jurnalistlərin vəzifələri" mövzusunda çıxış edib. O, qeyd edib ki, hərb sahəsində çalışan jurnalist söz azadlığının bütün tələb və qaydalarına, o cümlədən dövlət sirlərinin və hərbi sirrin qorunmasına əməl etməlidir. Jurnalist peşəkarlığı hansı informasiyanın dövlət sirri olub-olmamasını ayırd etməyə yetərli olmalıdır.

Daha sonra mövzu ətrafında müzakirələr olub.

Əlahiddə Ümumqoşun Ordunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin mülki qulluqçusu Nəriman Nəcəfov bəzi kütləvi informasiya vasitələrində hərbi verilişlərin hazırlanmasında yol verilən nöqsanların və hərbi sirr təşkil edən məlumatların qarşısını almaq məqsədilə hərbi qaydalara əməl etməyin vacib olduğunu bildirib.

Sonda seminar iştirakçılarının suallarına aydınlıq gətirilib.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Əhmədov Babək Elşən oğluna 2010-cu ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kursant Məmmədov Simran Qalib oğluna 2014-cü ildə verilmiş hərbi bilet və əmək haqqı kartı itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 600
Nüsxə 4700